BUILDING TRUST

MƏHSULUN MƏLUMAT VƏRƏQİ

# Sika® ViscoCrete® SF-20

Yüksək Keyfiyyətli Superaxışqanlaşdırıcı Beton Əlavəsi

## TƏSVİR

Sika® ViscoCrete® SF-20, beton və sement bağlayıcılı qarışımlar üçün 3-cü nəsil beton əlavəsidir.

## İSTİFADƏ YERLƏRİ

Sika® ViscoCrete® SF-20 çox məqsədli istifadə üçün nəzərdə tutulmuş unikal superplastifikatorudur, xüsusilə yüksək keyfiyyətli hazır beton istehsalı uyğundur. Sika® ViscoCrete® SF-20 , ultra yüksək su azaltma qabiliyyəti və axıcılıq xüsusiyyətləri təmin edir. İşlənmə müddəti ilə möhkəmlik inkişafının kombinasiya üstünlükləri ilə aşağıdakı məqsədlər üçün istifadə olunur:

- Hazır beton istehsalında
- Yüksək keyfiyyətli beton tələblərinin qarşılanması və istehsalında
- Uzun işlənilmə müddəti tələblərinin qarşılanmasında
- Hamar səthli, sıx və keçirməz beton istehsalında
- Döşəmə plitələri, bünövrələr, divarlar, kirişlər və sütunlar kimi mürəkkəb və incə elementlərin, sıx armaturlu betonlama işlərində
- Özündən yerləşməli beton (SCC) istehsalında

## ÜSTÜNLÜKLƏRİ

Sika® ViscoCrete® SF-20, qabaqcıl texnologiyaya əsaslanan yüksək təsirli superplastifikator olub, aşağıdakı üstünlükləri təmin edir:

- Yüksək su azaldıcı, nəticədə yüksək sıxlıq, yüksək möhkəmlik və azaldılmış keçiricilik əldə edilir.
- Uzadılmış işlənmə qabiliyyəti və sürətli bərkimə
- Yüksək plastikləşdirmə təsiri nəticəsində axıcılıq, yerləşmə və sıxlaşdırılmış beton xüsusiyyətləri yaxşılaşdırılır.
- Bərkimə dövründə azaldılmış büzülmə və sərtləşdikdən sonra azaldılmış sürünmə(creep).
- Maliyyətin optimallaşdırılması üçün geniş imkanlar yaradır
- Sement sərfiyyatının azaltması, daha qənaətcil qarışım dizaynı
- Potensial iddiaların və ya problemlərinin azalması

Sika® ViscoCrete® SF-20 tərkibində xlorid və ya poladın korroziyasını sürətləndirən digər komponentlər yoxdur. Buna görə də, o, dəmir-beton və əvvəlcədən gərginləşdirilmiş beton konstruksiyalarında istifadəyə tam uyğundur.

## TƏSDİQLƏR VƏ SERTİFİKATLAR

AZS EN 934-2:2024 standardının tələblərini qarşılayır.

## MATERIAL MƏLUMATI

| | |
|---|---|
| **Kimyəvi əsası** | Modifikasiyalı Polikarboksilat Polimer tərkibli əlavə |
| **Qablaşdırma** | Tökmə -Yük tankeri , İBC 1000kg |
| **Görünüş və rəng** | Qəhvəyi, maye |
| **Saxlama Müddəti** | İstehsal tarixindən etibarən 12 ay. |
| **Saxlama Şərtləri** | Məhsul bağlı, açılmamış qablaşdırmada, quru şəraitdə +5°C ilə +35°C arasında olan temperaturda, doğru anbarlama şərtlərində saxlanmalıdır. Birbaşa günəş işığından və dondan qorunmalıdır. |
| **Sıxlığı** | 1,07-1,11 kg/l, (+20°C-də) |

| | |
|---|---|
| **pH-Dəyəri** | 4-7 |
| **Cəmi Xlorid ion miqdarı** | Maks. 0.1 %, Xloridsiz |
| **Tövsiyyə olunan doza** | Tələb olunan beton xüsusiyyətlərindən asılı olaraq :<br>▪ Plastik beton: Bağlayıcı ağırlığının 0.4 -1%-i, (100kg sement üçün 400-1000gr əlavə)<br>▪ Özü yerləşən beton (SCC), yüksək işlənilmə xassəli beton və aşağı su/sement nisbətli beton istehsalında bağlayıcı ağırlığının 1-2.0 %-i ( 100kg sement/ bağlayıcı üçün 1000-2000gr)<br>Konsistensiyanı tənzimləyərkən beton əlavəsinin yüksək su kəsicilik xassəsi nəzərə alınmalı və qarışığa həddindən artıq su əlavə olunmamalıdır. Tətbiqdən əvvəl sınaqların aparılması tövsiyə olunur. |
| **Uyğunluq** | Sika® ViscoCrete® SF-20 birlikdə istifadəyə uyğun Sika® əlavələri:<br>▪ Sika®Aer / SikaPump® / SikaRapid® / Sika®FerroGard<br>▪ SikaFume® / Sika®Stabilizer / Sika®Antifreeze /Sika®Fibre<br>Məhsulların birlikdə istifadəsindən əvvəl hər zaman sınaqlar aparılmalıdır. Xüsusi kombinasiyalar barədə məlumat üçün Sika Beton Texniki Xidmət Şöbəmizlə əlaqə saxlanılması tövsiyə olunur. Sika® ViscoCrete® SF-20 uçucu kül, cüruf, silisium tüstüsü və s. kimi müxtəlif tipli əlavələrlə birlikdə istifadə oluna bilər. Tələb olunan betonun xüsusiyyətlərinini təmin etmək üçün uyğunluq sınaqları mütləq aparılmalıdır. |
| **Əlavə Olunma** | Sika® ViscoCrete® SF-20, ölçü suyuna əlavə olunur və ya su ilə birlikdə beton qarışdırıcısına verilir. Yüksək su azalması effektindən tam yararlanmaq üçün ən azı 60 saniyə yaş qarışdırma müddəti tövsiyə olunur. |

## MƏHSUL MƏLUMATLARININ ƏSASLARI

Bu məlumat vərəqində göstərilən bütün texniki məlumatlar laboratoriya sınaqlarına əsaslanır. Faktiki ölçülmüş məlumatlar nəzarətimizdən kənar vəziyyətlərə görə dəyişə bilər.

## DİQQƏT EDİLMƏLİ MƏHDUDİYYƏTLƏR

- Həddindən artıq su əlavə edilməsi və ya dozadan artıq tətbiq su ayrışmasına (bleeding) və ya segregasiya yarada bilər.
- Donma baş vermişsə və / və ya çökmə (çökmə çöküntüsü) müşahidə olunmuşsa, Sika® ViscoCrete® SF-20 otaq temperaturunda yavaş şəkildə əridildikdən və ardınca intensiv şəkildə yenidən qarışdırıldıqdan sonra istifadə edilə bilər.
- Sika® ViscoCrete® SF-20 tətbiq edilərkən, uyğun qarışıq tərkibinin nəzərə alınması vacibdir və yerli material mənbələri üzrə əvvəlcədən sınaqlar aparılmalıdır.
- Sika® ViscoCrete® SF-20 quru sementə birbaşa əlavə edilməməlidir.
- Sika® ViscoCrete® SF-20 qarışdırma suyu ilə birlikdə əlavə edilməlidir.
- Sika® ViscoCrete® SF-20 öz-özünə yerləşən beton (SCC) istehsalında istifadə olunduqda, uyğun qarışıq dizaynı mütləq nəzərə alınmalıdır.

### TƏTBİQ

Betonun istehsalı və yerləşdirilməsi ilə bağlı standart betonlama qaydalarına riayət edilməlidir. Yeni qarışıq dizaynı istifadə olunduqda və ya yeni beton elementləri istehsal edilərkən, beton istehsalına başlamazdan əvvəl laboratoriya sınaqlarının aparılması ciddi şəkildə tövsiyə olunur. Təzə beton düzgün şəkildə və mümkün sürətli kürləndirilməlidir.

## HÜQUQİ QEYDLƏR

Bu məlumat vərəqi, xüsusəndə, Sika məhsullarının tətbiqi və son istifadəçi üçün tövsiyyələri, doğru anbarlama, qarışdırma, və standard ətraf mühit şəraitində Sika təlimatlarına uyğun tətbiq olunmaqla əldə edilmiş bilik və təcrübəyə əsaslananan məsləhətlərdir. Praktikada, materiallardakı, səthlərdəki və faktiki sahə şərtlərindəki fərqliliklər səbəbi ilə, bu məlumat vərəqindən, hər hansı yazılı tövsiyələrdən və ya təklif olunan hər hansı digər məsləhətdən xüsusi bir tətbiq üçün uyğunluğu ilə bağlı nə bir zəmanət, nə də hüquqi münasibətdən irəli gələn hər hansı öhdəlik götürülə bilməz. Məhsulun istifadəçisi məhsulun nəzərdə tutulan xüsusi tətbiq və məqsəd üçün uyğunluğunu test etməlidir. Sika öz məhsullarının xüsusiyyətlərini dəyişdirmək hüququnu özündə saxlayır. Üçüncü şəxslərin mülkiyyət hüquqlarına riayət edilməlidir. Bütün sifarişlər mövcud satış və çatdırılma şərtlərimizə uyğun olaraq qəbul edilir. İstifadəçilər, məhsulun yerli Məhsul Məlumat Vərəqinin ən son nüsxəsinə istinad etməlidirlər. Məhsul Məlumat Vərəqini aze.sika.com internet səhifəsindən və ya sorğu əsasında info@az.sika.com poçt adresindən təmin edə bilərlər.

**Sika Azərbaycan MMC**
Sumqayıt Kimya Sənaye Parkı
Kimyaçılar küç.1, AZ5002
Sumqayıt E119
Telefon: +99412 585 10 11
Faks: +99412 585 10 12